Aqşin Vüqar oğlu Əliyev

UOT:336.22; JEL:G31.

Dövlət və icmal layihələr üzrə vergilərin dövlət büdcəsində rolunun qiymətləndirilməsi

Xülasə

Məqalə vergilərin dövlət büdcəsində rolunun qiymətləndirilməsi məsələlərinə həsr olunub və büdcə gəlirlərinin formalaşmasında vergilərin rolu təhlil edilir. Postneft dövründə yaranmış yeni iqtisadi modeldə ölkənin vergi sistemində islahatların aparılmasının zəruriliyi əsaslandırılır və həmin vəzifəni həyata keçirməkdən ötəri zəruri olan tədbirlərin sistemli şəkildə həyata keçirilməsi təklif olunur. Azərbaycan Respublikasının büdcə gəlirlərində vergidən daxilolmaların strukturu əvvəlki illərlə müqayisədə araşdırılmış və vergi gəlirlərinin xüsusi çəkisinin artırılması istiqamətində təkliflər verilmişdir.

Açar sözlər: *büdcə gəlirləri, vergi daxilolmaları, dövlət rüsumları, büdcə sistemi, gəlir vergisi, mənfəət vergisi, əlavə dəyər vergisi, aksiz vergisi.*

Giriş

Dövlət cəmiyyətin inkişafı üçün həyatın müxtəlif sahələrində iqtisadi, sosial, hərbi və s. olmaqla siyasət işləyib hazırlayır və bu tədbirlərin həyata keçirilməsində bilavasitə onun maliyyə mexanizmləri iştirak edir. Vergi siyasəti maliyyə siyasətinin ayrılmaz tərkib hissəsidir və dövlət vergi sistemini yaradarkən ondan müəyyən maliyyə məqsədlərini həyata keçirmək üçün istifadə edir. Eyni zamanda vergilər iqtisadiyyatın dövlət tənzimlənməsinin əsas elementlərin biri kimi çıxış edir. Hökumət vergi siyasəti vasitəsilə dövlət büdcəsinin tənzimlənməsi, planlaşdırılması və ona nəzarətin qanunla müəyyən edilmiş hüquqi normalarını reallaşdırır. Bu baxımdan vergilər dövlət büdcəsi gəlirlərinin əsas mənbəyi kimi onun həm maliyyə siyasətini formalaşdırır, həm də xərclərə nəzarət edilməsini həyata keçirir. Buna görə də illik olaraq büdcə layihələrində vergilərin ayrı-ayrı növləri üzrə payının qiymətləndirilməsi ölkənin makroiqtisadi göstəricilərinin təhlili üçün əhəmiyyət kəsb edir. Hər il müntəzəm olaraq büdcə layihəsi proqnozlaşdırılır və təsdiq olunur. Bu baxımdan son il üçün proqnoz olunan dövlət büdcəsində vergilərin rolunun qiymətləndirilməsi ölkənin cari il üçün makroiqtisadi vəziyyətini başa düşmək üçün məqsədə uyğun hesab edilir.

Vergilər dövlət büdcəsi gəlirlərinin əsas mənbəyi kimi

Bazar iqtisadiyyatı münasibətlərində dövlət büdcəsinin gəlirlərinin təhlil olunması mühüm məsələlərdən biridir. Büdcə gəlirləri dövlət gəlirlərinin yaranması prosesində birbaşa iştirak edir. Lakin dövlət gəlirləri büdcə gəlirlərindən fərqli olaraq, daha geniş məfhumdur və büdcə gəlirlərindən başqa dövlət gəlirlərinə büdcədənkənar fondlar və dövlət sektorunun vəsaitləri də daxildir. Azərbaycan Respublikası Vergi Məcəlləsinə əsasən, vergi anlayışı - dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədi ilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə köçürülən məcburi, fərdi, əvəzsiz ödəniş olaraq xarakterizə edilmişdir [3]. Məcəllədə qeyd olunan tərifi başa düşmək üçün verginin tutulma xarakteri və onun icra etdiyi funksiyaların izahatı verilməlidir. Vergi dövlətin öz funksiyalarını icra etmək məqsədilə, ölkənin qanunvericiliyində olan fiziki və hüquqi şəxslərdən dövlət və yerli hakimiyyət orqanları tərəfindən məcburi qaydada tutulan vəsaitlərdir. Vergilər müəyyən fəaliyyətlərlə bağlı məcburi ödənişlər olsa da, vergitutma yolu ilə toplanan gəlirlər dövlət tərəfindən təchiz edilmiş mal və xidmətlərin istehsalına və ya vətəndaşlar arasında satınalma gücünü yenidən bölüşdürmək məqsədilə ehtiyacların alınmasında istifadə olunur [8, 414]. Verginin

©Aqşin Vüqar oğlu Əliyev Odlar Yurdu Universiteti, i.ü.f.d.
©AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

məzmununa baxdıqda aydın olur ki, gəlirlərdən asılı olmadan vergiödəyənlərin hamısı məcburi surətdə vergi ödəmə aktının baş vermə prosesində iştirak edirlər. Buna görə də, istehsal edilmiş məhsullara və yerinə yetirilən müxtəlif növlü xidmətlərdən tutulan vergilər büdcə gəlirlərini təmin edən ən başlıca mənbə olmaqla bərabər bir sıra funksiyaları yerinə yetirmiş olur. Ancaq, bu funksiyalardan birincisi və ən əsası onun büdcə gəlirlərini təmin etmək funksiyasıdır. İngilis iqtisadçıları Burges və Stern qeyd edirlər ki, vergitutmanın əsas məqsədi dövlət xərclərini maliyyələşdirmək üçün resursları artırmaqdır [5, 762]. ABŞ iqtisadçısı Richard Bird isə hesab edir ki, vergi inzibatçılığı iqtisadi inkişafı formalaşdırmaqla yanaşı eyni zamanda effektiv dövlətçiliyin inkişafında da mühüm rol oynaya bilər. O həmçinin bildirir ki, vergi sistemi hər hansı bir ölkədə vətəndaş və dövlət arasındakı əsas interfeyslərdən birini təşkil edir. Belə qarşılıqlı əlaqələr çərçivəsində, vergilərin idarə olunması hökumətin təkcə siyasi gələcəyini deyil, həm də dövlətin hökumətə etibarını gücləndirir [4, 23]. Belə olduğu halda, dövlətin iqtisadi vəzifələri ilə onun maliyyə mexanizmi arasında qarşılıqlı əlaqənin mövcudluğu görünür ki, bu da dövlətin əhalinin sosial vəziyyəti, rifahı ilə məşğul olduğunu, əhalinin qayğısına qalmaq funksiyasını yerinə yetirdiyini göstərir. Bu mənada vergilər ölkə iqtisadiyyatında maliyyə tənzimlənməsinin ən mühüm və səmərəli mexanizmi və/və ya aləti kimi çıxış etmiş olur.

Azərbaycan Respublikasının büdcə gəlirləri

Azərbaycan Respublikasının büdcə gəlirlərinə Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının və yerli özünüidarəetmə orqanlarının müvafiq qanunvericilik aktları ilə müəyyən olunmuş qaydada dövlət büdcəsinə, Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə daxil olan vergilər, rüsumlar, digər ödənişlər və daxilolmalar aiddir [2]. Büdcə gəlirləri Azərbaycan Respublikasının Konstitusiyası, "Dövlət büdcəsi haqqında" qanun və digər qanunvericilik aktları ilə tənzimlənir. Məlumdur ki, ölkə daxilində bir sıra tədbirləri həyata keçirmək üçün müəyyən miqdarda maliyyə vəsaitləri tələb olunur. Dövlət öz xərclərini maliyyələşdirmək üçün ona maliyyə vəsaitləri lazımdır. Məhz bu baxımdan, büdcə gəlirləri dövlətin öz funksiyalarını yerinə yetirməsi üçün mərkəzləşdirilmiş maliyyə vəsaitləri mövqeyindən çıxış edir. Büdcə gəlirləri pul vəsaitləri fondunun formalaşması prosesində yaranan iqtisadi münasibətləri əks etdirir və hakimiyyət orqanlarının fəaliyyətinin həyata keçirilməsinə xidmət edir. Xərcləri maliyyələşdirmək üçün maliyyə vəsaitinin müəyyənləşdirilməsi məqsədilə büdcə gəlirləri qarşıdan gələn növbəti il üçün nəzərdə tutulur. Bu o deməkdir ki, büdcəyə daxil olacaq gəlirlər nəzərdə tutulan xərcləri maliyyələşdirəcəkdir. Dövlətin iqtisadi-sosial sahələrinin inkişafı, infrastruktur layihələrinin maliyyələşməsi məhz büdcə gəlirləri hesabına baş tutur.

Ölkə iqtisadiyyatının inkişafında büdcə gəlirlərinin rolu ondan ibarətdir ki, büdcə vəsaitləri hesabına iqtisadiyyatın az inkişaf etmiş sahələrinə dövlət yardımları etməklə həmin sahələrdə inkişafa nail olmaq olar. İctimai istehsal prosesi zamanı yeni yaranmış Ümumi Daxili Məhsulun (ÜDM) bir hissəsinin dövlətin və bələdiyyənin xeyrinə bölüşdürülməsi məhz büdcə gəlirlərinin yaranması prosesində baş verir. Beləliklə, bələdiyyə orqanları ilə vergi ödəyiciləri arasında maliyyə münasibətləri yaranmış olur. Bu mənada, milli gəlirlər büdcə gəlirlərinin əsas mənbəyi rolunda çıxış edir. Büdcənin gəlirləri vergi ödəyicilərinə, vergitutma obyektlərinə, alınması üsullarına, ödəniş müddətinə və digər amillərə görə fərqlənsə də, onların ortaq xüsusiyyəti budur ki, milli gəlirlər müxtəlif səviyyəli büdcələrin gəlir hissəsini təşkil edir. Milli gəlirlərin pul yaxud nağdsız qaydada daxil olması bütün büdcə səviyyələri üçün ümumi cəhətdir. Dövlət vergilərinin hər il üçün tətbiq olunan dərəcələri Vergi Məcəlləsində müəyyən edilən dərəcələrdən yüksək ola bilməz və hər il Azərbaycan Respublikasının dövlət büdcəsi haqqında qanunu qəbul edilən zaman həmin dərəcələrə yenidən baxıla bilər. Vergi dərəcələrinin dəyişdirilməsi və qanunvericiliyə hər hansı bir əlavə

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

və dəyişiklik yalnız ilin sonunda dövlət büdcəsi haqqında qanunun layihəsi Milli Məclisə təqdim olunduğu vaxt baxıla bilər [10, 44].

Azərbaycan Respublikasının büdcə gəlirlərinin formalaşmasında vergilərin təhlili


İstənilən dövlətin iqtisadi siyasətinin səmərəliliyi onun büdcə daxilolmalarında büruzə verir. Büdcə dövlətin, ayrı-ayrı təşkilatların və yerli özünüidarəetmə orqanlarının müəyyən dövr üçün gəlir və xərclərini özündə ehtiva edən maliyyə sənədidir. Buna görə də, dövlət büdcəsi dövlətin baş maliyyə planı hesab olunur [9, 4]. Vergilər büdcənin gəlirlər hissəsinin formalaşmasında, ümumdövlət və ünvanlı dövlət proqramlarının icra edilməsi məqsədilə dövlətin maliyyə ehtiyatlarını formalaşmaq üçün mühüm rola malikdir. Bu planda müəyyən bir zaman daxilində dövlətin pula olan ehtiyacları, gəlirləri və xərcləri əvvəlcədən müəyyən olunur. Aydındır ki, ölkədə özəl sektor inkişaf etdikcə sahibkarlıq subyektlərinin dövlət büdcəsinə ödədikləri vergilərin miqdarı da artmış olacaq ki, bu da dövlətin əhalinin rifahını yaxşılaşdırmaq üçün həyata keçirdiyi proqramların icrasına təkan verəcəkdir və ümumi iqtisadiyyata müsbət mənada təsir edəcəkdir. Lakin, 2015-ci il Azərbaycan iqtisadiyyatında devalvasiya ili kimi yadda qaldı. 2014-cü ilin sonlarında etibarən dünya neft bazarında qiymətlərin aşağı düşməsi böhranın başlanmasına səbəb oldu. Belə ki, brent markalı neftin qiyməti 2014-cü ilin ortalarından başlayaraq, təxminən 2 dəfə azalaraq bir barel neftin qiyməti 112 dollardan 59 dollara enmişdir [6]. Neft qiymətlərində belə kəskin azalmanın baş verməsi iqtisadiyyatı neftdən asılı olan ölkələrdə daha çox müşahidə olundu. Neft qiymətlərinin ucuzlaşması nəticəsində Azərbaycanda 2 dəfə kəskin devalvasiya baş verdi. 2015-ci ildə valyuta məzənnəsi 1 manat üçün 1.28 dollardan 0.65 dollara düşərək 50% ucuzlaşdı. Sonrakı dövrdə də manatın ucuzlaşması prosesi davam etdi [7, 3].

Milli valyutanın ucuzlaşması əsas vergi ödəyiciləri hesab olunan sahibkarlıq subyektlərinə mənfi təsir etdi. Əmtəə və xidmət sferasında tələbatın azalması nəticəsində sahibkarlıq subyektlərinin dövriyyələrində azalmalar müşahidə olundu. Nəticədə ümumi gəlirlər azaldı, zərər isə artdı. Eyni zamanda devalvasiya kreditlərin geri qaytarılmasında çətinliklər yaratdı, şirkətlərin bəziləri bankların girovuna çevrildi, bəziləri krediti qaytara bilmədiyi üçün əmlakını satışa çıxartmalı oldu. 2015-ci il devalvasiyası ölkənin iqtisadi-sosial həyatına əhəmiyyətli dərəcədə təsir etdiyi üçün məqalənin sonuncu bölməsi son 3 il ərzində dövlətin büdcə gəlirlərinin formalaşmasında vergilərin təhlilinə yönəlmişdir və müzakirələr Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 2015, 2016 və 2017-ci illər üzrə dövlət və icmal büdcə layihələrinin təqdimatına əsasən aparılmışdır.

Ölkənin büdcə-vergi siyasəti hazırlanarkən onun milli və regional prioritetlər, fiskal siyasətdən optimal nəticə əldə etmək üçün vergi dərəcələrinin dəyişməsinin işgüzar aktivliyə, büdcə xərclərindəki dəyişikliklərin inflyasiya və faiz dərəcələrinə, büdcə kəsirinin isə makroiqtisadi tarazlığa təsiri, həmçinin ölkə iqtisadiyyatının mövcud vəziyyəti, onun perspektiv inkişaf dinamikası nəzərə alınır [1, 8]. Belə ki, 2018-ci ildə dövlət büdcəsi gəlirləri üzrə proqnozun 7907,0 milyon manatı və ya 39,3 %-i Azərbaycan Respublikası Vergilər Nazirliyinin xətti ilə daxilolmaların, 9216,0 milyon manatı və ya 45,8 %-i Azərbaycan Respublikasının Dövlət Neft Fondundan transfertlərin, 2430,0 milyon manatı və ya 12,1 %-i Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların, 574,0 milyon manatı və ya 2,8 %-i isə digər gəlirlərin payına düşür [1, 12]. Qrafik 1-də Vergilər Nazirliyi xətti üzrə təmin edilən büdcə daxilolmalarının manatla miqdarı verilmişdir ki, proqnoz edilən 7907,0 milyon manatın 76,2 %-i qeyri-neft sektorunun, 23,8 %-i isə neft sektorunun payına düşmüş olur. Son 3 ilin göstəricilərinə nəzər yetiridikdə isə görünən odur ki, qeyri-neft sektorundan vergi daxilolmalarının miqdarı artmışdır. Devalvasiyadan əvvəl və sonrakı büdcə daxilolmalarına nəzər yetirdikdə görünür ki, ümumilikdə cəmi daxilolmaların miqdarı artmış, eyni zamanda bu artım qeyri-neft sektorunun özündə daha aydın hiss olunmuşdur.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Azərbaycan Respublikasının Vergilər Nazirliyi xətti üzrə təmin edilən büdcə daxilolmaları (mln. manat).



2018-ci ildə ayrı-ayrı vergi növləri üzrə daxilolmalar aşağıdakı qrafiklərdə proqnozlaşdırılmışdır.

✓ **Fiziki şəxslərin gəlir vergisi** üzrə daxilolmalar 1196,0 mln. manat nəzərdə tutulmuşdur. Ötən illə müqayisədə 28.0 mln manat çox olduğunu göstərir. Belə ki, bu artım yeni iş yerlərinin açılması və ortaaylıq əməkhaqqının artımı ilə bağlı olduğu bildirilir.

Fiziki şəxslərin gəlir vergisi (2015-2018)

	2015	2016	2017	2018 (proqnoz)
Cəmi: (mln. manatla)	982.5	1145.7	1168.0	1196.0
Əvvəlki ilə nisbətən artım	0.2	16.6	1.9	2.4
Qeyri-neft ÜDM-də xüsusi çəkisi, %-lə	2.6	2.9	2.7	2.5

✓ **Hüquqi şəxslərin mənfəət vergisi** üzrə daxilolmalar 2320.0 milyon manat manat nəzərdə tutulmuşdur. Belə ki, cari ilin proqnozu ilə müqayisədə 141,0 milyon manat və ya 6,5 % çoxdur. Həmin məbləğin 68,3 %-i və ya 1584,0 milyon manatı qeyri-neft sektorunun, 31,7 %-i və ya 736,0 milyon manatı neft sektorunun payına düşür. Son 3 il ərzində artım müşahidə olunsa da, 2015-ci ildə yaranmış devalvasiyadan sonra hüquqi şəxslərin sayının azalması 2016-cı ildə bu vergi növü üzrə daxilolmaların miqdarında azalmaya səbəb olmuşdur. Lakin növbəti illərdə yenidən artım müşahidə olunmuşdur.

Hüquqi şəxslərin mənfəət vergisi (2015-2018)

	2015	2016	2017	2018 (proqnoz)
CƏMİ: (milyon manat)	2211.1	1983.2	2179.0	2320,0
Neft sektoru üzrə	825.3	490.9	685	736
Qeyri-neft sektoru üzrə	1385.8	1492.3	1494.0	1584.0
Qeyri-neft sektorundan mənfəət vergisi üzrə əvvəlki ilə nisbətən artım, %-lə	27.9	7.7	0.1	6.0

© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

✓ **Əlavə dəyər vergisi** üzrə 2583 milyon manat nəzərdə tutulmuşdur və ötən illə müqayisədə ƏDV üzrə daxilolmaların miqdarı dəyişməz qalmışdır. 2017-ci ilin proqnozu ilə müqayisədə neft sektoru üzrə ƏDV 48,0 milyon manat və ya 14,8 faiz az, qeyri-neft sektoru üzrə ƏDV 48,0 milyon manat və ya 2,1 % çox proqnozlaşdırılır. Göründüyü kimi, ƏDV üzrə artım əsasən qeyri-neft sektoru üzrə nəzərdə tutulur ki, bunun da səbəbi növbəti ilə qeyri-neft ÜDM-in artımla proqnozlaşdırılmasının təsirinin nəzərə alınmasıdır.

Əlavə dəyər vergisi (2015-2018)

	2015	2016	2017	2018 (proqnoz)
Cəmi: (milyon manat)	2353.5	2108.3	2583	2583
Əvvəlki ilə nisbətən artım, %-lə	14.9	-10.4	22.5	0.0
ÜDM-də xüsusi çəkisi, %-lə	4.3	3.5	3.8	3.7
Vergilər Nazirliyinin xətti üzrə daxilolmalarda xüsusi çəkisi, %- lə	33.1	30.1	33.8	32.7

✓ **Sadələşdirilmiş vergi** üzrə daxilolmalar 380,0 milyon manat nəzərdə tutulmuşdur. Ötən illə müqayisədə bu göstərici 10,5 % artmışdır. Artımın səbəbi Azərbaycan Respublikasının Vergi Məcəlləsində edilmiş dəyişikliklərə əsasən sadələşdirilmiş vergi ödəyicilərinin əhatə dairəsinin genişlənməsi və vergi tutulan dövriyyənin məbləğinin artması ilə əlaqədardır.

Sadələşdirilmiş vergi (2015-2018)

	2015	2016	2017	2018 (proqnoz)
Cəmi: (milyon manat)	168.0	303.8	344.0	380.0
Əvvəlki ilə nisbətən artım, %-lə	9.5	80.8	13.2	10.5
Qeyri-neft ÜDM-də xüsusi çəkisi, %-lə	0.4	0.8	0.8	0.8
Vergilər Nazirliyinin xətti üzrə daxilolmalarda xüsusi çəkisi, %-lə	2.4	4.3	4.5	4.8

Səmərəli vergi sisteminin təşviq edilməsi

Qabaqcıl beynəlxalq standartlara uyğunluq və dünyanın aparıcı ölkələrində tətbiq olunan vergi xidmətlərinin əksəriyyətinin göstərilməsi qarşıya məqsəd qoyulmadır. Buna görə də, özəl sektorun inkişafını və sahibkarlıq subyektlərinin rəsmiləşdirilməsini təşviq edən, ehtiyatla müəyyən edilmiş, real vergi tarifləri olan, səmərəli və ədalətli vergi və icra sisteminin təqdim edilməsi istiqamətində islahatlar davam etdirilməlidir. Vergi sistemi və onun idarə olunması əlverişli biznes mühitinin əhəmiyyətli bir hissəsi olduğundan, Azərbaycanda sahibkarlıq subyektləri tərəfindən vergi ödənişlərinin həyata keçirilməsini

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

asanlaşdıran islahatlar aparılmışdır. Şəffaflığı artıraraq, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı inamı gücləndirmək, eləcə də davamlı iqtisadi inkişafın təşviqində vergi potensialını müəyyən etmək üçün vergi sistemi və inzibatçılığının təkmilləşdirilməsi sahəsində islahatlar davam etdirilməlidir. Bu istiqamətdə irəliləmək məqsədilə, digər ölkələrdə şirkətlərin vergi yükü və bütün əməliyyatlar üçün dəyər zənciri boyunca vergilər nəzərə alınaraq, ədalətli vergi səviyyəsi qiymətləndirilməlidir. Sahibkarlıq subyektlərinə lazım olan maliyyə öhdəliyinin proqnozlaşdırılması üçün ölkənin vergi öhdəliklərinin aydın müəyyənləşdirilməsi və proqnozlaşdırılması sahəsində mümkün islahatlar təhlil edilməli və qiymətləndirilməlidir. İcra olunan islahatlarla yanaşı, iqtisadi fəaliyyətin stimullaşdırılması, prioritet sektorlarda inkişafın təşviqi və xarici investisiyanın cəlb edilməsi üzrə fərqlənən vergi qaydalarının təsiri davamlı olaraq qiymətləndirilməlidir. İslahatların səmərəli icrasını təmin etmək üçün proses ərzində müvafiq hesabatlılıqla yanaşı, vergi inzibatçılığı kimi digər amillərin də rolu təhlil edilməli və müvafiq formada nəzərə alınmalıdır. Vergi sistemindən əldə edilən vəsaitlərin dövlət proqramları vasitəsilə iqtisadi artıma və iş yerlərinin açılmasına töhfə verən şirkətləri stimullaşdırmaqla, iqtisadi inkişafa dəstək verən sahələrə investisiya edilməsi imkanları təhlil edilməlidir. Azərbaycanda iqtisadi artım və inkişaf məqsədlərinə uyğun xarici investisiyaların cəlb edilməsi və həcminin artırılması istiqamətində mühüm təşəbbüslər həyata keçirmək lazımdır. Belə olduğu halda, xarici investisiyaların cəlb edilməsi əlverişli biznes mühitinin formalaşdırılması üçün mühüm rol oynaya bilər.

Nəticə

Aparılan təhlillərdən görünür ki, Vergilər Nazirliyinin xətti ilə daxilolmalar 7907.0 mln. manat olmaqla büdcə gəlirlərinin cəmi 39.3 %-i təşkil edir. Nəzərə alsaq ki, 2019-2021-ci illərdə Dövlət Neft Fondundan daxil olmaların əhəmiyyətli dərəcədə azalması nəzərdə tutulub. Belə olduğu halda Vergilər Nazirliyinin xətti ilə daxilolmalar artırılmalıdır. Bu artımı təmin etmək üçün ölkənin iqtisadiyyatının inkişaf etdirilməsinə ehtiyac vardır. Əlverişli biznes mühitinin yaradılmasında hökumətin aparıcı rolunun daha da gücləndirilməsi prioriteti çərçivəsində Azərbaycan dövləti biznes mühitinin institusional əsaslarını gücləndirməlidir. Xüsusilə də, azad rəqabət mexanizminin inkişaf etdirilməsi, dövlət-biznes münasibətlərində insan amilinin rolunun azaldılması ilə səmərəlilik, hesabatlılıq və şəffaflığın artırılması əsas istiqamət kimi götürülməlidir. Həmçinin dövlət vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması və optimal vergi yükü siyasəti vasitəsilə biznes mühitinin səmərəliliyinin yüksəldilməsi istiqamətində də fəaliyyətini davam etdirilməlidir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının 2018-ci ilin dövlət və icmal büdcələri üzrə layihələrinin təqdimatı. Bakı, 2017.
2. http://www.maliyye.gov.az/sites/default/files/Budce-19.10.2017.pdf
3. Azərbaycan Respublikasının büdcə sistemi haqqında qanunu. (2017), http://www.e-qanun.az/alpidata/framework/data/1/f_1126.htm
4. Azərbaycan Respublikasının Vergi Məcəlləsi . (2017). http://www.taxes.gov.az/modul.php?name=qanun&cat=3
5. Bird, R.M. (2015). Improving Tax Administration in Developing Countries. Journal of Tax Administration, 1(1), 23-45. Retrieved from http://jota.website/article/view/8
6. Burgess, R., & Stern, N.. Taxation and Development. *Journal of Economic Literature, 31*(2), 762-830. Retrieved from http://www.jstor.org/stable/2728515

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

7. Crude oil prices down sharply in fourth quarter of 2014. (2015, January 5). Retrieved from https://www.eia.gov/todayinenergy/detail.php?id=19451
8. Əliyev, S. (2017). Manatın devalvasiyasının biznesə mənfi təsirinin azaldımasında dövlət siyasəti. http://edf.az/ts_general/azl/layihe/IIED/downloads/manatın_devalvasiyasinin_biznese_menfi_tesirinin_azaldilmasinda_dovlet_siyaseti.pdf
9. Hyman , D. (2010). Introduction to Government Finance. In *Public Finance* (pp. 412–443). US:South-Western Cengage Learning.
10. Vergilər Nazirliyi icmal . (2016).

Агшин Вугар Алиев

Оценка ролей налоги в государственном бюджете в области проектов бюджета

Резюме

В статье анализируется роль налогов при формировании доходов государственного бюджета, необходимость проведения реформ в налоговой системе страны в новой экономической модели, созданной в постнефтном периоде, и систематическое осуществление мер, необходимых для выполнения этой задачи. Структура налоговых поступлений в бюджетные доходы Азербайджанской Республики была рассмотрена по сравнению с предыдущими годами и даны предложений для увеличении долю налоговых поступлений**.**

Ключевые слова: доходы бюджета, налоговые поступления, государственная пошлина, бюджетная система, подоходный налог, налог на прибыль, налог на добавленную стоимость, акцизный налог.

Agshin Vugar Aliyev

Assessment of the roles of taxes in state budget budget overview projects

Abstract

This paper assesses the role of taxes in the state budget based on budget overview projects for 2018. This paper also analyses the roles of taxes in the setting of state budget revenues, indicates necessities to implement reforms in the tax policy based on new model in the post-oil era, and proposes action plans to execute them. In addition, the paper analyses structure of tax receipts in the budget revenues in comparison with previous years, and provides suggestions to increase amount of tax revenues in the state budget.

Key words: *budget revenues, tax receipts, government fee, budget system, income tax, profit tax, value added tax, excise tax.*

Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov
Daxil olub: 22.10.2018.
Çapa qəbul olunub: 26.10.2018.

© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az